# Müəllimlər qurultayı

**Milli Arxiv İdarəsindən verilən məlumata görə, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkə üçün ağır və mürəkkəb dövrdə Şuşa şəhərində müəllimlərin qurultayının keçirilməsi haqqında 1919-cu il sentyabrın 27-də qərar qəbul etmişdir.**

Həmin qərara əsasən, Şuşa şəhərində müəllimlərin qurultayının təşkil edilməsi məqsədilə Xalq Maarif Nazirinin sərəncamına iyirmi milyonluq fonddan 30 min rubl pul vəsaiti ayrılmışdır. Belə bir ağır və çətin dövrdə Azərbaycan hökumətinin Şuşada müəllimlərin qurultayının keçirilməsi haqqında qəbul etdiyi qərar Cümhuriyyət hökumətinin ölkədə məktəb və təhsil işinin inkişafına xüsusi diqqət yetirdiyini bir daha təsdiq edirdi. Bundan savayı, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 11 avqust



1919-cu il tarixli qərarı ilə Şuşa şəhərində hökumət pulsuz şəhər xəstəxanasının əsasını da qoymuşdur. Tarixdən gətirilmiş bu nümunələr bir daha təsdiq edir ki, Qarabağ Azərbaycandır! Qədim türk torpağıdır, türk oylağıdır!

Azərbaycan.- 2022.- 6 dekabr. - S.11.